

## AYNUR YASƏMƏN QARABAĞLI

### SEVGİLİM

Yenə tək qalmısan, gileylənirsən,
Dərdini alaram özüm, sevgilim.
Həsrətin libasın tez geyinirsən,
Söylə, bəs mən necə dözüm, sevgilim?

Hər axşam dil açır sinəmdə ürək,
Xatirəni sayır o ləçək-ləçək.
Baxışım yanında soyuyur şimşək,
Sənsiz tüğyan edir gözüm, sevgilim.

Yerdən də, göydən də ilham alırdıq,
Çox qəmi, nisgili yola salırdıq.
Susuz da qalırdıq, ac da qalırdıq,
Taqətdən düşübdü dizim, sevgilim.

Başımda rəqs edir ildırım, tufan,
Həsrətinlə yandım hər saat, hər an.
Məni unutdunmu heç zaman-zaman,
Orda silinirmi izim, sevgilim?

Hərdən qəhərlənib deyirəm görən,
Şair varlığına varmı ruh verən.
Dağılıb olurlar lap pərən-pərən,
Çöllərə, düzlərə sözüm, sevgilim.

Yetsin görüş günü, yoluna çıxım,
Sevincdən şehlənən əlindən sıxım.
Sevgidən alışan gözünə baxım,
Birlikdə səninlə gəzim, sevgilim.

Ayrılıq kəlməsi gen dursun bizdən,
Yenə "eşq" süzülsün hər kəlməmizdən.
Aləm hali olsun saf sevgimizdən,
Allansın abırdan üzüm, sevgilim.

***Aynur Yasəmən (Yasəmən İnqilab qızı Əliyeva) 15 sentyabr 1980-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayəti Ağdərə rayonunun Sırxavənd kəndində dünyaya göz açıb. Doğma kənd orta məktəbində beşinci sinifə qədər oxumaq nəsibi olan Yasəmən erməni işğalı nəticəsində ailəsi ilə eldən didərgin düşüb. Çoxları kimi Bakı şəhərinə üz tutub pənah gətiriblər. Suraxanı rayonu Qaraçuxur qəsəbəsində məskunlaşdıqdan sonra 104 saylı qəsəbə orta məktəbində təhsilini davam etdirən Yasəmən ali təhsilini Azərbaycan Dövlət Pedaqoji Universitetində alıb. İxtisasca dil-ədəbiyyat müəllimidir.***

***Orta məktəb illərindən şeir yazmaqla yaradıcılığa başlayıb. Müntəzəm olaraq dövrü mətbuatda şeirləri ilə çıxış edir. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.***

***Hazırda Bakıda yaşayır. Ailəlidir, üç övlad böyüdür.***

***Yaradıcılığının əsas hissəsini Qarabağ həsrətli şeirlər təşkil edən şairə ədəbi mühitdə Aynur Yasəmən imzası ilə tanınır, sözsüz ki, həm də Qarabağlı kimi. "Vətən həsrətli ömür" və "Həsrətim dünəndə qaldı" adlı şeirlər kitablarının müəllifidir.***

***AYNUR YASƏMƏN QARABAĞLInı doğum günü münasibətilə təbrik edir, onun son şeirlərindən ibarət POEZİYA ÇƏLƏNGİni təqdim edirik.***

## YARIM

Həsrətdi gözümə şux baxışların,
Könlümü könlünə bağlayan yarım.
Mən yoxam, sığalsız qalan saçların,
Eylədi halımı pərişan, yarım.

Gözümdə-könlümdə min həsrətim var,
Hər tənha saata hekayətim var.
Gözündən özünə şikayətim var,
Mənsiz necə olur firavan, yarım.

Neçə vaxtdı məndən uzaq qalmısan,
Ötən gündən xatirə borc almısan.
Bilirəm ki, xəyallara dalmısan,
Düşündükcə bağrım olur qan, yarım.

Həsrətin var cana qəsd edər kimi,
Sən olmusan hər dərdimin həkimi.
Saatımın, dəqiqəmin hakimi,
Olmuşam hökmünə mən heyran, yarım.

Daşıdım həsrəti, qolumu yordu,
Xəzana dönübdü sevgimin yurdu.
İntizar sinəmə oxunu vurdu,
Qopubdu ruhumda bir tufan, yarım.

Nə deyim, əhvalım sənə əyandı,
Mənim sevgim el-aləmə bəyandı.
Vaxt gec gəlir, sən tələsdir, amandı,
Barı səndə olsun o vicdan, yarım.

## DARIXMIŞAM

Elə darıxmışam səninçün, ömrüm,
Əsiri olmuşam o saf sevdanın.
Eşqinin çölünə düşüb qalmışam,
Böyük ənamısan mənə Xudanın.

Yenə eşq küləyi əsir başımda,
Ya rəbbim, bu nədir, bu necə haydır.
Düşdüyüm sevdadan xəbərsiz olma,
Sevgin varlığımda kükrəyən çaydır.

Elə darıxmışam səninçün, ömrüm,
Azmışam sevdanın bənd-bərəsində.
Könlümdə tikdiyin eşq sarayının,
Səni gözləyirəm məqbərəsində.

Gün-gündən boy atan sevgi tağının,
Budağın günəşin telinə hörüm.
Hərdən məkanının eyvanına çıx,
O sevgi tağından simanı görüm.

Düşüm səmalardan enim yanına,
Alsın bu mənzərə çox gözəl görkəm.
O qədər işıqlı, nur üzlüsən ki,
Nurunda yox olur cüssəm, həm kölgəm.

## MƏNDƏN SALAM DEYİN MƏNSİZ KƏSİMƏ

Bəxtimə intizar çox sərt yazılıb,
Həsrətəm yarımın "hay can" sözünə.
Dənizin mehinə yalvarıram ki,
Səsimi yetirsin onun özünə.

Elə küsmüşəm ki, özüm-özümdən,
Özümlə bir canda yata bilmirəm.
Yanan ürəyimin qızmar közündən,
Sönən sevgimizə ata bilmirəm.

Yarımsız vətəndə olmuşam qərib,
Dənizdə limansız qalmış gəmiyəm.
Onun ürəyində nifrət göyərib,
Mən isə canlı bir ölü kimiyəm.

Kənardan ağlama desə də çoxu,
Bilmir ki, onsuzluq ömrümü yedi.
Ürəyimdən dəyib ayrılıq oxu,
İlahi nə pisdi bu hicran dərdi.

Yaralı bəndəyəm, səssiz-səmirsiz,
Onlu günlərimin xəyalındayam.
Keçdiyimiz sirli sevgi yolunun,
Hələ bir qarışlıq kandarındayam.

Sevdiyimin səsin hər gün duyuram,
Üşüdür o soyuq səs məni yayda.
Sınıram səsinin tonu altında,
"Can" sözün unudub o keçən ayda.

Qəriblik yaşadır məsum könlümə,
Can deyib sonradan verdiyin o hiss.
Çox gözəl yazırsan qəmi ömrümə,
Acılı sözlərə olmusan həris.

Yenə də bu səhər qəhərlə durdum.
Son dediyin sözün yaman dağı var.
Yerlə bir etdiyin bu sənsiz yurdun,
Gör indi nə qədər sızanağı var.

Bu xəstə halımı duyanım varmı,
Səs verə bu solğun, zəif səsimə.
Bir xaiş edəcəm sizdən, olarmı?
Məndən salam deyin mənsiz kəsimə!

## OĞLUM...

*(Ad günün mübarək, ağıllı Fəridim.*
*TANRI SƏNİ QORUSUN!)*

Ömrümün ilk baharı,
Evin oğul nübarı.
Elinin igid barı,
Həm etibarı oğlum.

Həyatımın naxışı,
Gözlərimin baxışı.
Sözləri bal axışı,
Kəlməsi noğul oğlum.

Bacıların canısan,
Sultanısan, xanısan.
Atanın ad sanısan,
Şöhrətli, şanlı oğlum.

Xoş həyatsan mənimçün,
Toy büsatsan mənimçün.
Xoş sovqatsan mənimçün,
Şirin bar, bəhər oğlum.

Boyunu daim görək,
Tərif deyək biz gərək,
On üç yaşın mübarək,
Gözümün nuru oğlum.

## ÜRƏYİM

Elə bil döyünmür, susub, sinəmin
Küncünə sıxılıb, qalıb ürəyim.
Qanına hopmusan hər düşüncəmin,
Hər adi sözün də olub gərəyim.

Yarımcan bir eşqin oduna düşüb,
Elə hey yandırır, qovurur məni.
Başqa fikirlərlə hər an döyüşüb,
Yenə də bitirir köksümə səni.

Neynəsin, bir ömür ehtiyac duyub,
Tapıb sənin kimi arif insanı.
Fikrində olanı əliylə yuyub,
Bizi birləşdirdi, yaxdı cahanı.

Çoxundan xəbərsiz gəldi başıma,
Nağıl aləminə səyahət kimi.
Ürəyim bir sevgi qatıb aşıma,
Nuş edib doymuram dadlı sevgimi.

## YAŞAR BU SEVGİ

Qanadlanıb yenə sevən xəyalım,
Uçub gələr görüşünə gizlicə.
Çatmır mənə bu şəhərin havası,
Ver ruhunu mən içim incə-incə.

Qarabağ qızıyam, ölürəm sənsız,
Bir yasaq sevdaya düşüb tamahım.
Ağlım sizdə olur səssiz-səmirsiz,
Bir ondan xəbər al, nədir günahım.

Əlimdə şeh tutub əlinin izi,
Dünyanı fəth edən caniyəm sanki.
O qədər çək-çevir etdim dünyanı,
Bir səndə özümü tapdım inan ki.

Keçdiyin yollarda, ünvan da ayrı,
Sevgimin çoxuna ağırmış daşı.
Qorxma, ömrüm-günüm, yaşar bu sevgi,
Dirilik suyudur gözümün yaşı.

## GÖZLƏRİNDƏN DOYMADIM

Görəsən bir ömür yetərmi bizə?
Həsrət yeyib, vüsalına çatmağa.
Yüz fikir bir borcu edibdir nizə,
İmkan vermir əllərindən tutmağa.

Düşüncəmdə duyğumdasan biləsən,
Qısqanclıqdan zülüm seçən giləsən.
Tanrı verən ərməğan tək gələsən,
Hicran xəstəsinə məlhəm olmağa.

Zalım fələk bizi, bizə qıymadı,
Yasəmənin sevgi nədir duymadı.
Ala gözüm gözlərindən doymadı,
Axı nə var bu dünyadan doymağa.

## ƏLÇATMAZIMSAN

Olmusan qismətim, məhəbbət payım,
Ömrümə nur saçan bəxt ulduzumsan.
Bahar sənsiz ötür, haqlıyıb yayım,
Dün gecə dərk etdim, əlçatmazımsan.

Göydəki tək ALLAH yaradanımdır,
Yerdəki ALLAHım sən olmusan, sən.
Düşünmə ağrıdan yaralarımdır,
Həsrətdən sinəmdə bitən qəmimsən.

Həsrətin günümə kəsilib qənim,
Günümdə, ayımda, illərimdəsən.
Sənsiz bir səhrayam kimsəsiz, yetim,
Sən də bir qərib tək çöllərimdəsən.

Sanki hiss etmirsən əzablarımı,
Qoymusan özünü uşaq yerinə.
Dün gecə sevmədin cavablarımı,
Gözümü işlətdim varaq yerinə.

Ağın etdim  varaq, qarasın qələm,
Ötən xatirəni yazdım, hey yazdım.
O qədər yazdım ki, doldu gözlərim,
Yaş açan cığırda özüm də azdım.

Əzəldən söylədim, ürək alışma,
Gördünmü unutdu yaşananları.
Get görüş yerinə, yığışdır bir-bir,
Sahilə dağılmış o xoş anları.

## AYRILİQ

Hər görüş zamanı dastana dönür,
Ayrılıq anında göz nurum sönür.
Bütün xoş anlarım üz üstə çönür,
Ayrılıq mehini əsdirən zaman.

Xəlbirə bənzəyən həyat yolunda,
İnsanlar ələnib sağda, solumda.
Sınır güc telləri, qalxmır qolum da,
Ayrılıq mehini əsdirən zaman.

Bu tale, bu qismət alın yazımdır,
Saçımın üç teli simli sazımdır.
Baharda don vuran güllü yazımdır,
Ayrılıq mehini əsdirən zaman.

## QADAN ALIM

Fikrindən olmuşam dəli, sərsəri,
Elə bil haqlıyıb əcəlin təri.
A zalım, baxsana bir üzü bəri,
Məni də yadına sal, qadan alım.

Deyirəm donuram, sənsiz ayazdır,
Deyirsən bayırda qış deyil, yazdır.
Get dəli aşiqə bir dua yazdır,
Dəyişibdir əhval gəl, qadan alım.

Sevdam ayaq alıb, saxlamaq olmur,
Sənidə hər dəfə yoxlamaq olmur.
Gözün çox qaçaqdı, haxlamaq olmur,
Gözünə bir qandal vur, qadan alım.

Bəzən daşa dönür ağzımızda dil,
Bu dərdə heç dözməz nə dəvə, nə fil.
Sənsiz bir qəribəm, olmuşam səfil,
Qəlbimə salmısan xal, qadan alım.

Sən gəl  başqasına satma sevgimi,
Büküb kağız kimi atma sevgimi.
Od vurub tonqal tək çatma sevgimi,
Bizə gözəl yiğval qur, qadan alım.

Biçarə bəndəyəm yoxdur əlacım,
Sevgində yoxdursa, sınıbdır tacım.
Ağrım sitəm edir, çoxalır acım,
Olmuşam anormal bil, qadan alım.

Bu dərdin əlindən alan da yoxdur,
Yetiməm, yadına salan da yoxdur.
Doğrular bitibdir, yalan da yoxdur,
Qalmayıb canımda hal, qadan alım.

Yamanca canımı sıxıbdı təklik,
Sanki öz yolunu azıbdı kəklik.
Mən kino çəkəndə edərsən təbrik,
Olmuşam serial bax, qadan alım.

Çağır qaçım gəlim sənin yanına,
Dilindən süzülüm keçim qanına.
Ovçusan ov olum arzularına,
Mən olum bir normal qız, qadan alım.

Biçarə Aynurun halı yamandır,
Mən dəli olacam, ALLAH amandır.
Dağlayıb qəlbimi xeyli zamandır,
Yandırıb bir qartal göz, qadan alım.

## *A ZALIM*

Mənim görüləsi iş, gücüm çoxdu,
Məni gəl bu qədər üzmə, a zalım.
Yıxıldım, məhv oldum, taqətim yoxdu,
Məni gəl bu qədər üzmə, a zalım.

Köhnə ağrılarım heç ötüşməyib,
O,  dərdin yarası heç bitişməyib.
Mənim üç fidanım tam yetişməyib,
Məni gəl bu qədər üzmə, a zalım.

Hicranın qövr edir, yatmamışam mən,
Sevgini kənara atmamışam mən.
Hələ çox arzuma çatmamışam mən,
Məni gəl bu qədər üzmə, a zalım.

Bir övlad toyunu görmədim hələ,
Onun nübarını dərmədim hələ.
Anama borcumu vermədim hələ,
Məni gəl bu qədər üzmə, a zalım.

Kükrəyib ürəyim, sanki dağ çayı,
Dağılıbdı dünyam, çıxıbdı zayı.
Mən kimə güvənim səndən savayı,
Məni gəl bu qədər üzmə, a zalım.

Yanır, alovıanır ürəyim başı,
Gözüm bulud kimi səpir yağışı.
Bir ismarıc yolla, güldür baxışı,
Məni gəl bu qədər üzmə, a zalım.

## *DİBÇƏKLƏRƏ QƏMİ ƏKDİM*

Yenə düşmüsən yadıma,
Sanki ayazdan donuram.
Ağrı düşüb sol yanıma,
Varlığınla ovunuram.

Titrəyirəm, əsim-əsim,
İçimdəki acın dinmir.
Belə olmaz, gəl hər kəsim,
Bu həsrətin odu sönmür.

Ürəyimdə körpə sevdan,
Qəlbim beşik, orda yatır.
Mən raziyam sev uzaqdan,
Gələndə ümid də gətir.

Yenə düşmüsən yadıma,
Neynəyim, yata bilmirəm.
Gecənin sən muradına,
Təəssüf çata bilmiərəm.

Məni yıxdı hər gedişin,
Hər görüşün verdi dözüm.
Çəkilməzdi bu vərdişin,
Vərdişinə aşiq özüm.

Hər gecəni acı çəkdim,
Saraldı, soldu bənizim.
Dibçəklərə qəmi əkdim,
Boy atmamış gəl, əzizim.